# Təfəkkür universitetində 11 aprel prezident seçkiləri ilə bağlı toplantı keçirildi

Fevralın 15-də Elm və Təhsil Mərkəzi Təfəkkür universitetində 11 aprel prezident seçkiləri ilə bağlı toplantı keçirildi. Tədbiri giriş sözü ilə açan Universitetin rektoru, professor Rahim Hüseynov Dövlət başçısı İlham Əliyevin öz səlahiyyətlərindən istifadə edərək aprel ayının 11-də ölkədə prezident seçkilərinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamın ölkə konstitusiyasına, seçki qanunvericiliyinə tam uyğun olduğunu dedi və bu sərəncamı bütün Azərbaycan xalqı kimi Təfəkkür universitetinin professor-müəllim heyətinin, tələbələrin və bütün kollektivin ürəkdən bəyəndiyini bildirdi.

Prezident İlham Əliyevin son 15 ildə əldə etdiyi böyük siyasi nailiyyətlərindən danışan professor Rahim Hüseynov İlham Əliyevin siyasi lider üçün zəruri olan ən yüksək keyfiyyətlərə malik olduğunu dedi. Umummilli liderin ciddi elmi əsaslara söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyevin qısa müddətdə Azərbaycanı Cənubi Qafqazada ən yüksək sürətlə imkişaf edən qüdrətli dövlətə çevirdiyini vurğuladı.

Yeni Azərbaycan Partiyasının VI qurultayında prezident İlham Əliyevin yenidən ölkə prezidentliyinə namizədliyinin irəli sürülməsi təkcə partiya üzvlərinin deyil, bütün Azərbaycan xalqının istəyini reallaşdırdığını deyən professor Rahim Hüseynov prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə vacib olan ictimai-siyasi sabitliyin qorunub saxlanıldığını, vətəndaş sülhünə və həmrəyliyinə nail olunduğunu həm xarici, həm də daxili siyasətdə böyük nailiyyətlər əldə olunduğunu vurğuladı, bu gün Azərbaycanda İlham Əliyevin alternativi olmadığını bəyan etdi. Rektor universitetin Yeni Azərbaycan partiyasının üzvlərinin YAP-ın VI qurultayında prezident seçkiləri ilə əlaqədar qəbul edilmiş qərarla bağlı zati-aliləri İlham Əliyevə onun namizədliyini dəstəkləmələri barədə 9 fevral 2018-ci ildə göndərdikləri məktubun məzmunu ilə tədbir iştirakçılarını tanış etdi.

Tədbirdə çıxış edənlər Azərbaycan Prezidentinin ölkəmizin inkişafı istiqamətində bütün sahələrə diqqət yetirdiyini bildirdilər. Son illərdə ölkədə yüzlərlə məktəblər tikilib təmir olunduğunu, xəstəxanaların müasir standartlara uyğun olaraq avadanlıqlarla təchiz olunduğunu, ölkəmizin infrastrukturunun tamamilə yeniləşdiyini dedilər və hamılıqla İlham Əliyevin namizədliyini dəstəklədiklərini bildirdilər.